# A NEW APPROACH IN PSYCHOLOGY: TRANSPERSONAL PSYCHOLOGY

**Hasan Isayev**[1]
**Irada Taghiyeva**[2]

**UDC:** 159.96; 61
**LBC:** 88.3
**HoS:** 52
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.101-111

## Keywords:

Psychology, Transpersonal, Soul, Human, Unconscious, Transcendence of the ego

## ABSTRACT

Abraham Maslow, who is known as the philosophical father of transpersonal psychology, first introduced the term to the public at a conference held in San Francisco in 1967. Maslow promoted the concept of the highest human development needs and the idea of "self-actualization." He also noted that humanistic psychology played a transitional role to transpersonal psychology. The aim of our research is to explore the relationship between the mind and body, explain what transpersonal psychology is, and describe the approach it offers. Additionally, the research seeks to examine both the theoretical and practical aspects of this field, explore its connection to human psychological development, and analyze the place of transpersonal psychology in contemporary psychology. In this research, a qualitative method was used as the research approach. The practical significance of the study lies in understanding the spiritual, moral, and emotional development of individuals, as well as forming a theoretical foundation for future articles on the subject. During the study, the general reasons for the emergence of the science of psychology, the concept of transpersonal psychology, the ways in which individuals can recognize themselves, the relationships between the mind and body, and the psychoanalytic approach to the health of the soul were explored. As a result of the research, we can understand how significant transpersonal psychology is in contemporary psychology. This is because it attempts to address nuances that certain schools of psychology (such as behavioral psychology, cognitive psychology, etc.) cannot explain.

[1] Master's student in "Psychology of Religion"at the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan (corresponding author)
E-mail: hesen.isayev.01@mail.ru
https://orcid.org/0009-0003-3444-7417
[2] Doctor of Philosophy in Philosophy,
Teacher of the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017
**To cite this article:** Isayev, H., & Taghiyeva, I. [2025]. A New Approach in Psychology: Transpersonal Psychology. *History of Science journal*, *6*(1), pp.101-111.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.101-111

***Article history:***
*Received: 14.12.2024*
*Accepted: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# PSİXOLOGİYADA YENİ YANAŞMA: TRANSPERSONAL PSİXOLOGİYA

**Həsən İsayev**[1]
**İradə Tağıyeva**[2]

**UOT:** 159.96; 61
**KBT:** 88.3
**HoS:** 52
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.101-111

**Açar sözlər:**

Psixologiya,
Transpersonal,
Ruh,
İnsan,
Fövqəlşüur,
Mənin fövqü

## ANNOTASİYA

Transpersonal psixologiyanın fəlsəfi atası olaraq bilinən Abraham Maslov, bu termini ictimaiyyətə ilk dəfə 1967-ci ilə San-Fransiskoda keçirilən konfransda təqdim etmişdir. A.Maslov insanın ən yüksək inkişaf ehtiyaclarını və “özünü reallaşdırma” anlayışını təbliğ etmiş, humanist psixologiyanın, transpersonal psixologiyaya keçid rolunu oynadığını vurğulamışdır. Tədqiqat işimizin məqsədi ruh və bədən arasındakı münasibəti araşdıraraq transpersonal psixologiyanın nə olduğunu, bu sahənin necə bir yanaşma təqdim etdiyini izah etməkdir. Həmçinin bu sahənin nəzəri və praktiki aspektlərini öyrənmək, onun insanın psixoloji inkişafı ilə əlaqəsini araşdırmaq və müasir psixologiyada transpersonal psixologiyanın yerini təhlil etməkdir. Tədqiqat işində tədqiqat metodu kimi keyfiyyət metodundan istifadə olunmuşdur. Tədqiqatın praktiki əhəmiyyəti insanın ruhi, mənəvi və emosional inkişafını anlamaq, mövzu ilə bağlı növbəti məqalələr üçün nəzəri bazanı formalaşdırmaqdır. Araşdırma zamanı ümumi olaraq psixologiya elminin meydana gəlmə səbəblərinə, transpersonal anlayışın nə olduğu, insanın özünü hansı yollarla tanıya biləcəyi, ruh və bədən arasında nə kimi əlaqələrin olduğu və ruhun sağlamlığına psixoanalitik yanaşma tədqiq edilmişdir. Tədqiqatın nəticəsi olaraq müasir psixologiya elmində transpersonal psixologiyanın nə dərəcədə əhəmiyyətli olduğunu qismən anlaya bilərik. Çünki bu sahəni qəbul etməyən bəzi psixologiya məktəblərinin (davranışçı psixologiya, koqnitiv psixologiya və. s) cavablaya bilmədikləri dini təcrübələr, transpersonal təcrübələr kimi nüanslara bu sahə açıqlamalar gətirməyə çalışır.

[1] Azərbaycan İlahiyyat İnstitutunun “Din psixologiyası” ixtisası üzrə Magistr tələbəsi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: hesen.isayev.01@mail.ru
https://orcid.org/0009-0003-3444-7417
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru,
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi; Bakı, Azərbaycan
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017
**Məqaləyə istinad:** İsayev, H., & Tağıyeva, İ. [2025] Psixologiyada Yeni Yanaşma: Transpersonal Psixologiya. *History of Science jurnalı, 6*(1), səh.101-111.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.101-111

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 14.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 13.01.2025*
*Çapa qəbul edilmişdir: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# НОВЫЙ ПОДХОД В ПСИХОЛОГИИ: ТРАНСПЕРСОНАЛЬНАЯ ПСИХОЛОГИЯ

**Гасан Исаев**[1]
**Ирада Тагиева**[2]

**УДК:** 159.96; 61
**ББК:** 88.3
**HoS:** 52
**DOI:** 10.33864/2790-0037.2025.v6.i1.101-111

**Ключевые слова:**

Психология,
Трансперсональная,
Душа,
Человек,
Бессознательное,
Трансценденция эго

## АННОТАЦИЯ

Абрахам Маслоу, которого считают философским отцом трансперсональной психологии, впервые представил этот термин общественности на конференции, прошедшей в Сан-Франциско в 1967 году. Маслоу пропагандировал концепцию высших потребностей человеческого развития и идею "самореализации". Он также отметил, что гуманистическая психология сыграла роль перехода к трансперсональной психологии. Целью нашего исследования является исследование взаимосвязи между духом и телом, объяснение того, что такое трансперсональная психология, а также описание подхода, который эта область предлагает. Также целью исследования является изучение теоретических и практических аспектов этой области, исследование ее связи с психологическим развитием человека и анализ места трансперсональной психологии в современной психологии. В исследовании использован качественный метод исследования. Практическая значимость исследования заключается в понимании духовного, морального и эмоционального развития человека, а также в формировании теоретической базы для будущих статей по этой теме. В ходе исследования рассматривались общие причины возникновения науки психологии, что такое трансперсональное понимание, каким образом человек может познать себя, какие связи существуют между духом и телом, а также психоаналитический подход к здоровью духа. Результатом исследования является понимание того, насколько важна трансперсональная психология в современной психологии, так как она пытается дать объяснения на нюансы, которые не могут объяснить некоторые школы психологии (такие как бихевиористская психология, когнитивная психология и т. д.).

[1] Магистрант по специальности «Психология религии» Азербайджанского института теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: hesen.isayev.01@mail.ru
https://orcid.org/0009-0003-3444-7417
[2] Доктор философии по философии,
Преподаватель Азербайджанского института теологии; Баку, Азербайджан
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017
**Цитировать статью:** Исаев, Г., & Тагиева, И. [2025]. Новый подход в психологии: трансперсональная психология. *Журнал History of Science*, *6*(1), с.101-111.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.101-111

***История статьи:***
*Статья поступила в редакцию: 14.12.2024*
*Отправлена на доработку: 13.01.2025*
*Принята для печати: 28.02.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

İnsanı anlamağa çalışmaq bəşər tarixi boyunca mövcud olan bir tendendsiyadır. Ancaq texnologiya inkişaf etdikcə ictimai əlaqələr qarmaşıq hala gəlmiş və insan davranışlarını anlamaq bir hədəf halına çevrilmişdir.

Şərq aləmində həyatı anlamaq üçün insanın ilk olaraq özünü anlayıb, tanımalı olduğu ifadə edilir. Transpersonal psixologiya da insanı anlamaq üçün insandan yola çıxaraq məsələləri sorğulayır. Bu sorğulamada insanın dərinliklərinə enərək psixi prosesləri aydınlaşdırmağa çalışır.

Hal-hazırda istər qərb dünyasında, istərsə də şərq dünyasında insanlar mənəvi böhran içindədirlər. Tədqiqatçılar bu böhrana səbəb olacaq şeylərdə dərin müzakirələr aparırlar. Müzakirə başlıqları arasında dinsizlik, aclıq, texnologiyanın zamanla sürətli inkişafı kimi məsələlər yer alır.

Nəticə olaraq insanlarda müxtəlif suallar meydana gəlir. Və bu sualların arayışına çıxırlar. Kimiləri din yolu ilə, kimiləri ruhi terapiyalarla, kimiləri də psixoloqlar vasitəsi ilə bu suallara cavablar tapıb mənəvi boşluqlarını doldurmağa çalışırlar.

Fikrimizcə insanların depresiv hallarının qarşısını almaq üçün bu sualların cavabları tapılmalıdır. Bunun üçün də XX əsrdə formalaşan Transpersonal psixologiyanı araşdırmağı günümüz reallığında məqsədəuyğun gördük.

Transpersonal psixologiya elm kimi hələ bütün tədqiqatçılar tərəfindən qəbul olunmasa belə bu sahənin özündə ehtiva etdiyi mövzular insan elmlərində araşdırılan faktlardır.

## *2.Psixologiya anlayışı*

Psixologiya bütün digər elmlər kimi, ilk babalarımızın duyduğu maraq ilə başlamışdır. İlk insanın, ətrafı haqqında soruşduğu suallar sonradan astrologiya, fizika və biologiya kimi elmlərin meydana çıxmasına səbəb olmuşdur. Özü haqqında, xüsusilə daxili yaşayışları və davranışları haqqında soruşduğu suallar da zehni fəlsəfə və nəhayət psixologiya elminə yol açmışdır. [Munn, 1968, 3]

Psixologiya termini, Yunanca əsli baxımından iki kəlimədən ibarətdir: bunlar, ruh mənasına gələn "psyche" və bilgi, elm mənasına gələn "logos"dur. Buna görə psixologiya, ruh bilgisi, ya da ruh elminin mənasını ifadə etməkdədir. Lakin bundan, psixologiyanın birbaşa olaraq ruh üzərinə araşdırmalar etdiyi anlaşılmamalıdır. Əsasən ruh anlayışı mücərrəd bir reallığı dilə gətirir və bu mənada mövzuyla əlaqəli fəlsəfi və dini açıqlamaların tarixi, psixologiya elmindən çox qədimlərə uzanır. Psixologiyanın əsl mövzusu, insanın ruhi yaşayışı və davranışıdır. Psixologiya, ruh və bədən bütünü içərisində, tarixi və sosyo-mədəni reallıq müstəvisində mövcudluğu olan mücərrəd insanı ələ alır. Artıq psixologiyanın müstəqil vəziyyətə gəlməsi və sürətli bir inkişaf göstərməsi, onun reallıq sahəsindəki iş imkanlarının ortaya çıxması ilə eyni zamana müvafiq gəlir. [Hökelekli, 2010, 5]

Bu gün ibtidai həyat şəraitində yaşayan topluluqlarda mövcud olan fikirlərə əsasən deyə bilərik ki, ilk babalarımız, xüsusilə yuxulara heyrət etmişlər. Yuxuda yaşayarkən uzaq yerlərə getmək, düşmənləri məğlub etmək, ürəklərinin istədikləri bir yoldaşın arxası ilə getmək və sonda ələ keçirmək kimi hadisələrlə qarşılaşdıqlarına təəccüblə yasnaşmışlar. İnsanın gözlərində baxan, qulaqlarında eşidən, dərisində hiss edən şey nə idi? İnsan niyə bəzən tabuları pozmağa yönəlirdi? Cəsur olmaq istədiyi zaman özünü titrədən nə idi? Həyatı sonlandığı zaman nə olurdu? Bir çox ibtidai qövmlər bu kimi sualları cavablandırarkən, insanın daxilində bir insan – yuxu və ölümdən qeyri zamanlarda bədənə həbs edilmiş olan ruha bənzər, görünməz bir varlıq – olduğunu fərz etdilər. Bu anlayış, insanın daxili təcrübələrini və davranışını açıqlamaq istəyən məsələyə tətmin edici bir cavab deyildir, lakin insan ruhu haqqında fəlsəfi düşüncələrin başlanğıcını təşkil edir. [Munn, 1968, 3]

Beləliklə, ölüm və yuxular, ilk insanlarda ruh fikrinin oyanmasına yardım etmişdir. Artıq son nəfəslə reallaşan ölüm hadisəsi qarşısında, dünyanın demək olar ki, hər yerində insan zehni eyni dəyərləndirməni etmiş, eyni təsəvvürə baş vurmuşdur. Hər millətin dilində ruh mənasına gələn kəlimələrin orjinalları araşdırıldığında, ruhun nəfəs, hava, külək, iy kimi uçucu olan lakin gözə görünməyən bir varlıq olaraq nəzərdə tutulduğu anlaşılır. Eyni şəkildə, ərəbcədən dilimizə keçmiş olan ruh kəliməsinin, külək mənasına gələn "rih" kəliməsiylə və iy mənasına gələn "rayiha" kəliməsiylə əlaqəsi vardır. Bütün bunlar, ruhun həyat verən bir qüvvə kimi başa düşüldüyünü göstərir.

İslam mütəfəkkirlərinin əksəriyyəti, ruhu Allahın bir əmri, bir işi olduğu üçün araşdırmaqdan çəkinmişdirlər. Çünki Peyğəmbərimizə, "Ruh nədir? Mahiyyəti və əsli necədir?" kimi suallar soruşulduqda, bu suallara Qurani-Kərimdə belə cavab verilmişdir: [Peker, 2014, 15-16]

*"Səndən ruh barəsində soruşarlar. De ki, ruh Rəbbimin əmrindədir. Sizə onun haqqında az bir elm verilmişdir"* [Qurani-Kərim məalı, 2004, "əl-İsra", 17/85]

### *3.Transpersonal anlayışı*

1950-ci illərdə psixoterapistlər, yeni bir xəstə tipi ilə qarşılaşmağa başladılar. Bu tip, çağdaş ictimai standartlara görə olduqca normal qəbul edilən, müvəffəqiyyətli bir şəxsdir. O, nüfuzlu bir peşəyə, məqbul bir gəlirə, məqbul bir ailə həyatına, ictimai hörmətə, yəni toplumda insana xoşbəxtlik gətirəcəyinə inanılan bütün imkanlara sahibdir. Bu şəxs, adi standartlara görə "xoşbəxt" olduğunu bilir, ancaq yenə də terapiyaya yönəlir, çünki həyatın boş olduğunu düşünür və özünü məyus hiss edir. Həyatda pul, karyera, mal və etibardan daha artığı yoxdurmu? Həyatın mənası haradadır? [Palmer, 2006, 9]

Araşdırmamızın əsasını təşkil edən "Transpersonal" anlayışı psixoloji bir fikir olaraq, təqribən yüz il öncə ortaya çıxmış və ilk istifadəsi də William James tərəfindən reallaşdırılmışdır. "Transpersonal" tam mənası ilə "mənin fövqü" deməkdir. "Ötə", "Fövq" mənalarını daşıyan "trans", insanlığın daha üst cəhətlərini ifadə etməkdədir. Bunlar; həyat, ruh, kainat və kainat ötəsidir. İngiliscə köklü olan bu söz, yenə ingiliscə qaynaqlı olan və "trans-personal"ın ikinci kəliməsi olan, "şəxs, fərd" mənasındakı "person" və "fərdi" mənasındakı "personal" ilə birlikdə bu alt psixologiya sahəsinin adını yaradır. Transpersonal termini, müxtəlif inanc vəziyyətlərini təcrübədən keçirdib öz kimliklərinin fərdilikdən və şəxsilikdən ötəyə doğru genişləyərək açıqlandığını qeyd edən şəxslərin danışdıqlarının diqqətli bir araşdırma nəticəsində ortaya atılmışdır. [Uysal, 2007, 27]

Trans, "Qarşı sahildə, üstündə, fövqündə, digər tərəfə" mənasındadır. Transpersonal kəliməsi lüğəvi olaraq fərdin ya da fərd ağlının fövqü ya da qarşısı mənasına gəlir. Ədəbiyyatda *mənin fövqü* termini sıxlıqla "sadəcə şəxsi olanın və ya subyektiv olanın fövqündəki" mənasında işlədilir. Elmi ədəbiyyatda işlədildiyi formada transpersonal psixologiya, fərdin potensialının, qabiliyyətlərinin və ya fərdin özünü reallaşdırması ilə yaratdığı aləmin fövqünə keçən dəyərlərlə, məsələlərlə və dövrlərlə maraqlanan bir psixologiya məktəbidir. [Tüfekçi, 2004, 18]

Transpersonal sözü (şəxsi ötən və ya şəxs vasitəsilə) adətən özünü dərk şüurunun aşılması və daha böyük, daha mənalı bir həqiqətlə əlaqə və ya iştirak hissi ilə təcrübələr, proseslər və hadisələr üçün istifadə olunur. Transpersonal adətən mənəviyyat və dini təcrübə sahəsi ilə bərabərdir, lakin o, insanların fitrətinin əsas əlaqəsini anlama kimi özünü aşan iştirak formasının qeyri-dini növlərini də əhatə edir. Bu digər fenomenlərdə insanın ruhi hallarının ifadəsi olaraq anlaşıla biləcəyi üçün transpersonal termini ümumi olaraq ruhla əlaqəli hər hansısa bir mübahisə ilə birlikdə metafizik və dini qərəzlərin qarşısını alır. Transpersonal perspektivə mərkəz olan fərziyyə, transpersonal fenomenlərin normal egoist var oluşun təməl bir çevrilişini təşkil edir və nəticədə daha tətmin edici və ya dəyərli bir

vəziyyətə yol açır. Başqa bir sözlə, transpersonal psixologiyada güclü bir normativ, soterioloji və ya xilasedici bir gündəm var. [Friedman & Hartelius, 2013, 23]

***4.Özünü Tanıma (Dərketmə)***

"Məndə heç olmasa elə dini hiss və ya Tanrıyla birbaşa təmas halları olurmu ki, bu mənə bir fərd kimi kütlənin içində əriyib itməmək üçün inam aşılasın?"

Fərd yalnız, özünü öyrənmək və tanımağın tələblərinə ciddi şəkildə tabe olanda bir az öncə ortaya qoyduğum bu suala müsbət cavab verə bilər. Əgər o, bu tələbləri yerinə yetirirsə, yalnız özü haqqında vacib həqiqətləri öyrənməklə qalmır, həm də psixoloji üstünlük qazanmış olur. Bununla o, ciddi diqqət göstəriləsi və dərindən duyulası bir varlıq olduğuna inanmağa başlayır. Bundan sonra o, öz şüurunun təməlinə doğru ilk addımı atacaqdır, yəni dini hissiyatın yeganə qaynağı olan şüursuzluğa doğru yürüyəcək. Bununla mən heç də demək istəmirəm ki, şüursuzluq Tanrı ilə eynidir, yaxud onu əvəz edə bilər. O, sadəcə dini hisslərin yarandığı mühitdir. Bu hisslərin yaranma səbəbinə gəlincə bu sualın cavabı insan biliyinin hüdudlarından çox uzaqlarda yerləşir. Tanrının dərk edilməsi, fövqəltəbii problemdir. [Jung, 2021, 71-72]

Mustafa Merterin "Dokuz Yüz Katlı insan" əsərində insanın iki qütbdən ibarət olduğu deyilir. İnsan özünü tanıma prosesində bu qütblərin bir-birilə dialoqundan istifadə edir. Bu iki qütb nəfs və candır. Daha aydın anlamağımız üçün aşağıdakı nümunəyə baxa bilərik.

Bir göydələn xəyal edin. Ən üst qatları buludlar içində yoxa çıxmış, qaranlıq gecədə bütün möhtəşəmliyi ilə qarşımızda dayanır. Bu binanın içinə girdiyimizdə çox təəccüblü bir vəziyyət ilə qarşılaşırıq. Hər mərtəbədə tam bənzərimiz var və bizi fərq etmədən əlindəki işlə məşğul olur. Ən alt mərtəbə olan zirzəmiyə, qaranlıq bir "diskotekaya" giririk. Rəngarəng parlayan işıqlar, dumanlı bir hava. Demək olar ki, göz gözü görmür. Qulaqları kar edən bir musiqi və başı dumanlı, ruh kimi insancıqlar. "Bizimki" bunların arasında səhnədə rəqs edir! Bir üst mərtəbədə Las Vegas bənzəri bir qumarxana. Üzündə yalançı bir gülümsəmə, yarı çılpaq bir xanım bizə buyur deyir. Yenə qaranlıq bir mühit. İnsancıqlar, gözləri dönmüş bir halda, oyun aparatlarının qarşısına keçmiş, zər atır. Üzündə can çəkişən kimi bir ifadə var. Heyrətlə baxıb "Bu mənəm?" deyirik. Alt mərtəbələrdəki zülmət bizi boğduğu üçün üst qatlara çıxırıq. Buralar deyəsən daha aydınlıqdır. Bir mərtəbədə "bizimki" mühasib olmuş, hissə sənədlərinin hesablamalarını aparır. Digərində praqmatik bir siyasətçi, ətrafına toplanmış insanlara vədlər verir. Başqa bir mərtəbədə də gözəllik salonuna getmiş, bizi fərq etmədən üzünü gərdirir, saçlarını boyatdırır... Bir başqa mərtəbədə ailə başçısı, yoldaşı və uşaqları ilə maraqlanır. Yuxarı mərtəbələrə çıxdıqda qəribə bir aydınlıq olduğunu görürük. Zirzəmi ilə arasında elə bir təzad var ki, inanılmazdır. Bu aydın mərtəbələrdə "bizimki" səbrlə isanlara dözür; bəzən bir xəstəyə baxır, bəzən bir yetimin başını sığallayır. Buludlar arasındakı mərtəbələrdə, özünü ibadətə vermiş, başı səcdədə dua edir. Bulud sərhəddini keçdiyimizdə möhtəşəm bir ay işığı gözümüzü alır. "Bizimki" o izaholunmaz işığın içərisində, işıqdan bir varlığa çevrilmiş bir halda bizlərə gülümsəyir. İçimizə bir rahatlıq, sülh, hüzur, güvən çökür. Yaşlı gözlərlə ona yönəlib onu qucaqlamaq istəyirik. Özümüzdən aslı olmayaraq soruşuruq: "Bəs daha əvvəllər hardaydın?" Bunun üzərinə yüngül gülümsəyir: "Mən həmişə səninləydim..."

Psixoloji aspektdən baxdığımızda hər mərtəbədəki "biz", bir alt şəxsiyyətimizə, səhnədə oynadığımız rolumuza uyğundur. Bununla birlikdə hər rol, dərinlikdə bir parça narahatlıq və tətminsizlik daşıyır. Bu narahatlıq alt mərtəbələrdə üst səviyyədədir. Hiss edilən acı o qədər çoxdur ki, o alt şəxsiyyət özünü anesteziya etmək məcburiyyətindədir. Bu səbəblə tapa bildiyi ən sərt içkiləri içərək, bəzən də narkotik qəbul edərək bu acını dindirmək istəyir və təsəllini insanda axtarır. Gecəni bərabər keçirtdiyi sevgilisinə ən romantik eşq sözlərini fısıldadıqdan sonra, sabah oyandığında onu bir "cadugər" kimi görür, ertəsi axşamı bir başqasına yönəlir. Bir mərtəbədən digərinə keçmək, müvəqqəti bir rahatlığa qovuşdurur,

lakin bir müddət sonra əvvəlki mərtəbədə yaşadığı "narahatlıq" qəlbini yenidəm bürüyür. Əgər bir üst mərtəbəyə çıxmaq mümkün olmazsa içində olduğu mərtəbə nə qədər mükəmməl döşənmiş olsa da şərtləri nə qədər ideal görünsə də rahatlıq gedərək itir. Gizli bir səs qulağımıza "Sənin yerin bura deyil" deyə fısıldayır. [Merter, 2022, 185-187]

***5.Ruh və bədən arasındakı əlaqə***

Qərb ənənəsində (Xristian ənənəsi) ruh-bədən dualizmi, uzun müddət zeitqeyst olaraq öz əhəmiyyətini qorumuşdur. Buna görə bədən, öz bioloji və fizioloji qanunlarına uyğun; ruh isə, daha çox mənəvi qanunlara uyğun işləyir. Bədənin bu qatı fizioloji görüntüsü, qismən modern tibbin şərtidir. Lakin Asiya ənənəsində, xüsusilə də Hind ənənəsində yogaya, meditasiyaya və asketizmə yol açan saf ruhi elementlərin bədən funksiyalarına təsiri, uzun zamandan bəri imkan daxilində görülürdü.

Qərbdə vahid baxış aspektinin müzakirə edilə bilən hala gəlməsi, ancaq son zamanlarda mümkün olmuşdur. Fiziki sağlamlıqla ruhi (mənəvi) sağlamlıq arasındakı əlaqə baxımından günümüzdə insan, keçmiş bir neçə on ilə görə daha şüurlu hala gəlmişdir. Erik Holm 50-ci illərin sonunda *Sunden Die Religion und die Rollen* adlı əsərində, ruh ilə bədən arasındakı əlaqənin anlaşılması məqsədi ilə bir model ortaya qoymuşdur. R. R. Grinkeri əsas alaraq inkişaf etdirdiyi model bu idi: İnsan beş təməl sahədə hərəkət edir. Üçüncü sahə, yəni orta sahə, qalan digər sahələrdəki fəaliyyətləri nizamlayan və bir-birinə bağlayan sinir sistemidir. Bu sahəni öncəliklə mədə, əl, ayaq kimi daxili və xarici bədən orqanları və kimyəvi ferment (hormon) müddətlərinin təsirli olduğu ən alt sahə izləməkdədir. Bu sahədə narkotiklər, maddələr mübadiləsi ilə əlaqəli dəyişmələrə yol açır. Orta sahənin üst hissəsində, öncəliklə birlikdə yaşadığımız insanlara istiqamətli sosial əlaqələr yer alır. Bu sahənin üzərində isə, bütövlük təcrübəsi, yəni varolma ilə birləşmə, bütövləşmə və həmrəylik təcrübəsi yer alır. Bəsit mənası ilə burada, bir həyat görüşü, əhatə edici bir simvol dünyası var.

Dinin yeri, ən üst sahədədir. Zaman-zaman toqquşan mesajları ilə günümüz plüralist dünyasında insan, holistik sahədə ciddi problemlərlə qarşı qarşıyadır. Başqa bir ifadə ilə bu gün insanın, müxtəlif dinlərin, elmi və dırnaq arasında elmi teoremlərin rəqabəti arasında vahid bir görüş qazanması çətindir. İstiqamətini bu ən yüksək (zehni) dərəcəyə uyğun olaraq müəyyənləşdirmə prosesində ortaya çıxan yetərsizlik, bəzən şübhəyə və özgələşməyə, hətta sosial və fiziki narahatlıqlara yol aça bilər. [Holm, 2007, 75-77]

İslam mütəfəkkirlərinin düşüncələrinin ortaq xüsusiyyətlərini belə ifadə etmək olar; Ruh, insanın öz varlığı və təməl ünsürüdür. İnsan ruhu, cisim və cismanilik xaricində nurani və lətif bir cövhərdir. O, bədəndəki orqanlar və güclər vasitəsilə idarəetməni edir, onlara hərəkət verir və yönlərini təyin edir. Ruh, başlanğıcı olmayan bir varlıq deyildir, yəni o yaradılmışdır. Lakin ruh bölünməz, parçalanmaz, itməz, xarab olmaz və ölməz. Üstəlik o, bir yer işğal etmədiyi kimi sıxlığı, genişliyi və dərinliyi də yoxdur. Bədən ancaq ruhun orqanı və qəlibidir. [Peker, 2014, 17]

Miladdan əvvəlki dövrlərdə ruh-bədən əlaqəsini insan ötəsi varlıq əlaqəsindən ayırmaq asan deyildi. Çünki psixologiya, psixiatriya, dini inanc və təcrübələr bir-biri içərisinə keçmiş vəziyyətdə idi. Psixoloji hal və davranışların bioloji köklü olduğu düşünüldüyü üçün tarixdə psixologiya, tibbin bir qolu olaraq ələ alınmışdır. Buna görə də ilk çağlarda psixologiya, həkimlərin insanın ruhu və bədəni haqqındakı görüşləri işığında tibb elmi içərisində inkişaf etmişdir. Tibb də dini inanclara uyğun olaraq şəkillənmişdir. Qaynaqlara görə Şumerlərdən Akkadlara qədər Mesopotamiya sivilizasiyalarında hər növ xəstəliyin təməlindəki səbəb, bilərək və ya bilməyərək edilən pisliklər, yəni günah hesab olunmuşdur. Həkim-rahib statusundakı şəxs xəstəsi ilə, bu günahı tapmaq üçün görüşmələr edər və xəstənin vicdanını tamamilə açaraq özünə danışmasını istəyirdi. [Düzgüner, 2013, 255]

Miladdan sonra sürətlə yayılan Xristian düşüncəsi, ruh-bədən və insan ötəsi varlıq əlaqəsinə yaxınlaşmada da müəyyən edici olmuşdur. IV əsrdən etibarən tarix səhnəsində aktiv rol alan Bizansda ruh və ruhi narahatlıqlar ilə əlaqəli məlumatlar Kilsənin görüşünə buraxılmışdı. Buna görə də insan ruhu, birbaşa olaraq Tanrının ruhunun bir uzantısı olaraq qəbul edilmiş və xəstə olması ehtimalı rədd edilmişdir. Başqa bir ifadə ilə ruh, xəstə olmaz, ancaq şeytan tərəfindən ələ keçirilə bilərdi. Bizansda bu düşüncənin hakim olduğu vaxtda Avropada bir durğunluq dövrü müşahidə olunurdu. [Düzgüner, 2013, 257]

### *6.Ruhun sağlamlığı - psixoanalitik yanaşma*

Ruhi pozuntuların sağaldılmasında elmi bir üsul olaraq psixoterapiya tibbdə olduqca yenidir. Ancaq, acı çəkən, uyğunsuz, qəmgin bir insana ruhi aspektdən kömək olma və ağrıları aradan qaldırma təcrübələri insanlıq tarixi qədər qədimdir. İnsanlar ən primitiv çağlardan bəri bir-birləri üçün böyük acı mənbəyi ola bildikləri kimi, bir-birlərinə böyük dəstək də vermişdir. Təbiət qarşısında çox vaxt gücsüz və çarəsiz qalan primitiv insan dərin qorxular və güvənsizlik duyğuları içində özünü qoruya bilmək, rahatlada bilmək üçün, təkamül prosesində qazandığı gizli güclərini işlədərək, iki istiqamətdə inkişaf etmişdir:

1. Ətrafını araşdırma, sorğulama, düşünmə, bilmə, öyrənmə və hərəkət bacarıqlarını istifadə edərək alətlərini inkişaf etdirmiş, tədricən elm və texnologiyanı yaratmışdır.
2. Duyğularını, xəyal gücünü də istifadə edərək bir yandan dini inanclara, bir yandan da incəsənətə yönəlmişdir.

Təbiət qarşısında gücsüz qalan primitiv insan fövqəltəbii güclərin (cin, pəri, şeytan və.s) varlığına inanaraq anlaya bilmədiyi bir fenomeni açıqlama, aydınlatma, anlaya bilmə və bunlara görə özünü müdafiə yolları araşdırmışdır. O, öz gücü və texnologiyası ilə xəstəliklərin, təbii fəlakətlərin öhdəsindən gələ bilməyincə, bunların yaranma səbəblərini və bunlardan necə qoruna biləcəyi ilə əlaqəli inanclar, anlayışlar, tətbiqlər inkişaf etdirmişdir. Bunların qalıntılarını, izlərini günümüzdə də görmək mümkündür. [Öztürk, 2016, 17]

Məhz bu səbəblərdən zamanla transpersonal psixologiyanın elm kimi meydana gəlməsi şərt idi. İnsanların cavabsız qalmış sualları var idi. Və bu cavabsız qalmış suallar insanları boşluğa sürükləyirdi.

Elm ilə din arasında qeyri-müəyyən bir nöqtədə olan psixoanaliz, din psixologiyası ilə də maraqlanmışdır. Psixoanaliz, bu sahəyə yeni aspektlər qazandırmış, dini fenomenə aid qədim mübahisə üsullarını müzakirə etmiş və bu üsulları dini təcrübəni açıqlayacaq tərzdə genişləndirmişdir. Fövqəlşüur təcrübələrin dini həyatın şəkillənməsində və davamlılığında təsirli olduğunu ortaya qoyaraq, din psixologiyasına mühim töhfə vermişdir. Bu baxımdan psixoanaliz, davranışın təməl mənasının xaricində necə və hansı dərəcədə anlaşılmalı olduğunu sorğulamışdır. [Crapps, 2004, 188]

Günümüzdə Psixoanaliz bir sıra yeni cərəyanla birlikdə inkişaf etməkdədir. Freyd nəzəriyyəsini dəstəkləyənlərdən bu nəzəriyyəni təkmilləşdirib dəyişdirdikləri qədər bir-birindən fərqlənən “revizionist”lərədək müxtəlif üsul və metodlar yaranıb. Ancaq bu fərqliliklər tədqiq etdiyimiz mövzu baxımından elə də əhəmiyyət daşımır. Bizə görə, əsl əhəmiyyətli olan məsələ “sosial uyğunluq” yaratmaq məqsədinə yönəlmiş psixoanlizlə “ruh sağlığı” prioritet olan metod arasındakı fərqliliklərdir.

İlkin mərhələlərdə psixoanaliz tibb sahəsi kimi xəstəliklərin müalicə edilməsini hədəfləyir. Həmin dövrlərdə psixiatrların yanına gələn xəstələr gündəlik həyatlarında onları narahat edən simptomlardan şikayətlənirdilər. Bu simptomlar özlərini bəzi çətinliklər, sabit fikirlər, fobiyalar, paranormal düşüncələr, buna bənzər formalarda bəlli edirdi. Başqa həkimlərə gedən xəstələrlə bunlar arasındakı fərq, psixiatra müraciət edənlərin xəstəlik səbəblərinin bədən əvəzinə ruhda gizlənməsi idi. Bu səbəblə, müalicə üsulu da cismani olanlar yerinə ruhi görüntülər üzərinə cəmlənmişdir. Hər iki müalicədə məqsəd eynidir: simptomu aradan qaldırmaq. Xəstə fiziki səbəblərdən yaranan öskürmə, yaxud ürəkbulanma

kimi şeylərdən xilas olduqda necə yaxşılaşmış sayılırsa, nevrotik fikirlərdən, fobiyalardan qurtulduğunda da müalicə olunmuş hesab edilir.

Tədqiqatlar zamanı Freyd və köməkçiləri əhəmiyyətli bir nüansın fərqinə vardılar; xaricə əks olunan simptomlar nevrotik narahatlığın ən diqqət çəkən, ən ağrılı tərəfidir. Xəstələri təkcə bu xaricdə əks olunan əlamətdən xilas etmək müalicənin başa çatdığı anlamına gəlmir. Ona ediləcək əsl kömək xasiyyətini analiz etmək, belə simptomları yaradan səbəbləri aradan qaldıracaq şəkildə xarakterini yenidən formalaşdırmasını təşkil etməkdir. Əldə edilən nəticə xəstələrin də yeni düşüncə tərzi qazanmalarıyla inkişaf etmişdir. Çünki psixiatra müraciət edən adamların əksəriyyəti bildiyimiz mənada xəstə deyildir, onlarda yuxarıda qeyd etdiyimiz simptomlara rast gəlinmir. Bunlar psixi xəstə olaraq da görülmür. Dostları, yaxınları arasında xəstə olaraq deyil, "həyatı çətinliklər" içində keçən bir fərd kimi tanınırlar. Məhz bu həyati çətinliklər onları psixiatra getməyə məcbur edən səbəbdir. Həmin şikayətlər yeni deyil, insanlıq tarixinin hər dövründə məzlumluq kompleksi içində olanlar, özünü narahat hiss edənlər, evliliklərindən xoşbəxt olmayanlar, işindən razı qalmayanlar və başqalarından qorxan bir çox insan bu cür problemlərlə qarşılaşmışdır. Bu insanlar belə vəziyyətlərdə ya bir dostun, ya bir filosofun köməyinə sığınmış, ya da hansısa kənar yardıma ehtiyac duymadan bu xüsusiyyətlərilə birlikdə yaşamış, xoşbəxt olmağa çalışmışdır. [Fromm, 2022, 72-73]

### *7.Nəticə*

İnsanlar tarix boyu anlam arayışı içərisində olmuşdur. Filosoflar isə bu arayışı tədricən insanın özünə yönləndirmiş və cavabları da məhz özündə tapacağını ifadə etmişlər. Bu arayış zamanı din, mənəviyyat, ruh, nəfs kimi anlayışlardan yararlanmışdır. Amma XX əsrin 60-70-ci illərinə qədərki modern psixologiya, bu saydığımız konsepsiyalardan uzaqlaşaraq insanı anlamağa cəhd etmiş, bunun nəticəsi gözlənilən kimi olmamışdır. Çünki reallıqda yaşanan dini və transpersonal təcrübələri göz ardı etmişdilər. Əsasən qərb dünyasında olan bu problem daima müzakirə məsələsi olmuş və həlli üçün müxtəlif işlər görülmüşdür.

Tədqiqatımızın mövzusu olan "Transpersonal psixologiya" məhz bu məsələlərin doğurduğu problemləri həll etmək üçün ortaya çıxmışdır. Bu sözün genezisinə baxsaq Qustav Yunqa qədər gedib çıxa bilərik. Ondan sonra Vilyam Ceyms, daha sonra isə Abraham Maslov istifadə etmişdir. 1967-ci ildə bu məsələlərlə bağlı toplantı keçirilmiş, A. Maslovun da araşdırmaları nəzərə alınaraq, Stanislav Qrofun "Transpersonal psixologiya" təsnifi qəbul olunmuşdur.

Transpersonal psixologiya ad olaraq yeni elm sayılsa da onun araşdırdığı mövzular, müzakirəyə qoyduğu məsələlər qədim dövrlərə qədər gedib çıxır. Bunu da qeyd etmək lazımdır ki, əsasən qərbin pozitivist düşüncəli öncüləri hələ də bu sahəni elm kimi qəbul etmirlər. "Əlinizdə konkret dəlillər yoxdur" deyərək, bu sahəni psixologiyanın dördüncü gücü hesab etmirlər.

Bütün insanlıq tarixində daha əvvəl heç bir bənzəri görülməyən şəkildə zamanla yarışırıq. Bu yarış zamanı transpersonal psixologiya aspektindən bizim üstümüzə düşən vəzifə özümüzü, mənliyimizi, nəfsimizi dərk etməkdir. Günümüzdə eyniylə, Mustafa Merterin "Göydələn" nümunəsindəki kimi yuxarı mərtəbələrə qalxmaqla həqiqətə çatıb, əsl mənliyimizə qovuşa bilərik bəlkə də.

### *8.REFERENCE*

1. Crapps, R. W. (2004). *Psychoanalysis and Religion. Marife Journal of Religious Studies*, 1, 171–190. (In Turkish).

2. Duzguner, S. (2013). The Historical Adventure of the Psychological Approach to the Relationship Between Soul-Body and Human-Transcendent Being. *Marmara University Faculty of Theology Journal*, 45, 253–284. (In Turkish)
3. Friedman, H. L., & Hartelius, G. (2013). *The Wiley-Blackwell Handbook of Transpersonal Psychology*. John Wiley & Sons, 706 p. https://doi.org/10.1002/9781118591277 (In English)
4. Fromm, E. (2022). *Psychoanalysis and Religion*. Baku: Cosmo Publishing, 128 p. (In Azerbaijani).
5. Holm, N. G. (2007). *Introduction to the Psychology of Religion*. Istanbul: Human Publications, 175 p. (In Turkish).
6. Hokelekli, H. (2010). *Psychology of Religion*. Eskisehir: Anadolu University Press, 368 p. (In Turkish).
7. Jung, C. G. (2021). *The Undiscovered Self*. Baku: Cosmo Publishing, 121 p. (In Azerbaijani).
8. Merter, M. (2022). *The Nine Hundred-Layered Human*. Istanbul: Kaknus Publications, 453 p. (In Turkish).
9. Munn, N. L. (1968). *Psychology: Fundamentals of Human Choice* (Vol. 1). Istanbul: National Education Printing House, 335 p. (In Turkish).
10. Ozturk, M. O. (2016). *Psychoanalysis and Psychotherapy*. Ankara: Turkish Psychiatric Association Publications, 307 p. (In Turkish).
11. Palmer, H. (2006). *The Mirror of the Soul: Human Landscapes Reflected in the Enneagram*. Istanbul: Kaknus Publications, 444 p. (In Turkish).
12. Peker, H. (2014). *Psychology of Religion*. Istanbul: Camlica Publications, 256 p. (In Turkish).
13. *The Qur'an Translation*. (2004). (Translated by Vasim Mammadaliyev et al.). Baku: Chirag Publishing. (In Azerbaijani).
14. Tufekci, C. (2004). *Stages of Consciousness and Religious Experience According to Transpersonal Psychology*. Bursa, 254 p. (In Turkish).
15. Uysal, S. (2007). *Transpersonal Psychology and Religion*. Istanbul, 111 p. (In Turkish).

## *ƏDƏBİYYAT*

1. Crapps, R. W. (2004). Psikanaliz ve din. *Marife Dini Araştırmalar Dergisi*, 1, 171–190.
2. Düzgüner, S. (2013). Ruh-Beden ve İnsan-Aşkın Varlık İlişkisine Yönelik Psikolojik Yaklaşımın Tarihi Serüveni. *Marmara Üniversitesi İlahiyat Fakültesi Dergisi*, 45, 253–284.
3. Friedman, H. L., & Hartelius, G. (2013). *The Wiley-Blackwell Handbook of Transpersonal Psychology*. John Wiley & Sons, 706 s. https://doi.org/10.1002/9781118591277
4. Fromm, E. (2022). *Psixoanaliz və din*. Bakı: Kosmo Nəşriyyatı, 128 s.
5. Holm, N. G. (2007). *Din psikolojisine giriş*. İstanbul: İnsan Yayınları, 175 s.
6. Hökelekli, H. (2010). *Din Psikolojisi*. Eskişehir: Anadolu Üniversitesi Yayını, 368 p.
7. Jung, C. G. (2021). *Kəşf olunmamış mənlik*. Bakı: Kosmo Nəşriyyatı, 121 s.
8. Merter, M. (2022). *Dokuz Yüz Katlı İnsan*. İstanbul: Kaknüs Yayınları, 453 s.
9. Munn, N. L. (1968). *Psikoloji insan intikabının esasları* (Vol. 1). İstanbul: Milli Eğitim Basımevi, 335 s.

**10.** Öztürk, M. O. (2016). *Psikanaliz ve psikoterapi*. Ankara: Türkiye Psikiyatri Derneği Yayınları, 307 s.
**11.** Palmer, H. (2006). *Ruhun Aynası: Enneagram'a Yansıyan İnsan Manzaraları*. İstanbul: Kaknüs Yayınları, 444 s.
**12.** Peker, H. (2014). *Din psikolojisi*. İstanbul: Çamlıca Yayınları, 256 s.
**13.** Qurani-Kərim Məali. (2004). (Tərcümə: Vasim Məmmədəliyev və başqaları). Bakı: Çıraq Nəşriyyatı.
**14.** Tüfekçi, Ç. (2004). *Transpersonel psikolojiye göre bilinçlilik aşamaları ve dini tecrübe*. Bursa, 254 s.
**15.** Uysal, S. (2007). *Transpersonel psikoloji ve din*. İstanbul, 111 s.